***Mehparə İmamverdi qızı Əliyeva***
*AMEA Arxeologuya və Etnoqrafiya İnstitutu*
*"Müasir dövr etnoqrafiyası" şöbəsi*
E-mail: mehparaaliyeva@rambler.ru

# TARİXİ MAHNILARIN ETNOQRAFİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR

**Açar sözlər:** tarixi mahnılar, dastan, xalq qəhrəmanı, kəndli hərəkatı, Koroğlu, Zeynəb paşa;

**Ключевые слова:** исторические песни, эпос, народный герой, Короглу, Зейнаб паша, крестьянское движение;

**Key words:** historic songs, epos, notional herais, peasant movenunt, Koroglu, Zeynab Pasha

Tarixi mahnılar xalq mahnı yaradıcılığının mühüm bir janrı kimi Azərbaycanın şifahi ənənəvi professional musiqisində özünəməxsus yer tutur. Tarixi mahınılar zaman-zaman xalqın həyatında və ölkənin ictimai-siyasi həyatında mühüm rol oynamış hadisələrə və xalq qəhrəmanlarına həsr olunmuş mahnılardır.

Məlum olduğu kimi, Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində öz içindən Cavanşir, Babək, Koroğlu, Səttərxan, Qaçaq Nəbi kimi qəhrəmanlar yetişdirmiş və onlar istiqlaliyyət, azadlıq uğrunda rəşadətlə mübarizə aparmışlar (1, s. 64). Həmin mübarizənin xarakteri - vətənə məhəbbət, düşmənə nifrət, mərdlik, səmimilik və s. kimi xüsusiyyətlər tarixi mahnılarda başlıca cəhət hesab olunur.

Geniş xalq kütlələrinin dillər əzbəri olan tarixi mahnılar həm el sənətkarları, həm də ustad aşıqlar tərəfindən dönə-dönə ifa olunmuş və mübarizəyə çağırış simvolu kimi bizim günlərdə də aktuallığını itirməmişdir. Onlar istər məzmun, istərsə də forma etibarilə ən yaxşı poetik ənənələrin davamı olub, şifahi ədəbiyyatda qoşma, gəraylı, müxəmməs və beşlik formasının müxtəlif şəkillərinə malikdirlər.

Onu da qeyd etmək vacibdir ki, sözügedən mahnıların «tarixi» və ya «qəhrəmanlıq mahnıları» adlandırılması ilə bağlı tədqiqatçılar arasında hələ də müəyyən fikir ayrılıqları mövcuddur. Məsələn professor R.Rüstəmzadə xalq qəhrəmanları - Koroğlu, Qaçaq Nəbi, Qaçaq Kərəm və digər tarixi şəxsiyyətlər haqqında oxunan mahnıları «tarixi mahnılar» adlandırılmasını düzgün hesab etməyərək yazır: «…Bizə elə gəlir ki, onları «qəhrəmanlıq mahnıları» adlandırmaq daha düzgün olardı. Ən azından ona görə ki, bu termin Azərbaycan ədəbiyyatında çox geniş yayılmışdır. Tarixi mahnılar müstəqil bir janr olmaq etibarilə qəhrəmanlıq mahnılarından fərqlənir. Bu fərqlər aşağıdakılardan ibarətdir: Əvvəla, Azərbaycan qəhrəmanlıq mahnıları qədim tarixi köklərə malik olduğu halda, tarixi mahnılar nisbətən cavandır. Hətta onların yaranma tarixini də dəqiq göstərmək mümkündür.

İkincisi, qəhrəmanlıq mahnıları lirikaya, tarixi mahnılar isə eposa aid edilir.

Üçüncüsü, qəhrəmanlıq mahnıları forma etibarilə də tarixi mahnılardan fərqlənir: belə ki, əgər qəhrəmanlıq mahnıları üç misralıq 4-5 bəndlik şer parçalarından ibarət olursa, tarixi mahnılarda misraların sayı bəzən 600-700-ü də keçir. Bundan əlavə, hər hansı bir tarixi hadisəni əks etdirən istənilən mahnını tarixi mahnı kateqoriyasına aid etmək də düzgün deyil…» (2, s. 75-77).

Azərbaycan xalq mahnı yaradıcılığının tarixi çox qədimlərə gedib çıxsa da, qəhrəmanlıq musiqisi nümunələrinin meydana gəlmə və inkişafı XVI-XVII əsrlərə aid edilir. Belə ki, məhz bu dövrdə Azərbaycan musiqi və poetik folklorunda «Koroğlu» eposunun meydana gəlməsi ilə qəramanlıq mahnıları oxuma, rəqs və instrumental melodiyanın vəhdətindən ibarət bir janr kimi davamlı inkişaf yoluna qədəm qoydu (3, s.7).

«Koroğlu» dastanı dövrün tarixi hadisələrini əks etdirməklə yanaşı, özündə xalqın döyüş ruhunu, haqsızlıqlara qarşı mübarizə əzmini və qəhrəmanlıqlarını canlandıran nadir bir eposdur. Həmin qəhrəmanlıq və mübarizə əzmi isə zaman-zaman «Koroğlunun təlimi», «Koroğlunun atlanması», «Koroğlu-

nun zil qaytağı», «Qaytarma Koroğlu», «Cəngi», «Döşəmə Koroğlu», «Atlı Koroğlu», «Piyada Koroğlu» «Koroğlunun cəngisi», «Koroğlunun Çənlibeli», «Qəhrəmani», «Misri», «Koroğlunun cəng havası», «Aşıq Koroğlu» və s. mahnılarda bədii obrazlarla ifadə olunmuşdur.

Dastanın baş qəhrəmanı Koroğlunun təqdimatı onun qeyri-adi keyfiyyətlərə – fövqəladə gücə, şairlik və aşıqlıq istedadına, özü kimi qəhrəman igidlərə və Qırat kimi nadir bir ata malik olduğunu göstərir ki, bu keyfiyyətlər də qəhrəmanı tərənnüm edən mahnılarda özünəməxsus şəkildə əksini tapmışdır. Məsələn;

Qıratın üstündə, dəlilər yanında,
Dağları, daşları gəzər Koroğlu.
Hərdən acıqlanıb nərə çəkəndə,
Yağılar bağrını əzər Koroğlu.

Mərd meydanda qaçmayıbdır yaşında,
Dəlilərin cəm görmüşəm başında,
Düşməni sındırar tər savaşında,
Cünun deyər, şirə bənzər Koroğlu! (4, s. 10).

Burada Koroğlu obrazının qeyd olunan xüsusiyyətləri oxucuya və ya dinləyiciyə başqa bir şəxsin - Aşıq Cununun dilindən çatdırılır. Amma bəzən qəhrəmanın döyüş ruhu, düşmənə qələbə çalmaq əzmi, qorxmazlığı və s. cəhətləri ikinci şəxsin təqdimatında deyil, qəhrəmanın öz dilindən səslənən səfərbərlik və çağırış notlarından ibarət misralarda da açılır:

Hoydu, dəlilərim, hoydu,
Yeriyin meydan üstünə.
Havadakı şahin kimi,
Tökülün al-qan üstünə (4, s. 107).

Və yaxud;

Xəbər verin dəlilərim oyansın,
Tutulubdu, xan Eyvazım əldədi.
Misri qılınc qızıl qana boyansın,
Tutulubdu xan Eyvazım əldədi (4, s. 99).

«Koroğlu» qəhrəmanlıq dastanı olmaqla bərabər, orta əsrlər Azərbaycanın ailə-məişət və nikah münasibətlərinin formaları (toy, nişan, qızqaçırma, dəfn) haqqında qiymətli mənbə, həmçinin pak və ülvü məhəbbətin parlaq təcəssümüdür. Burada xalq sənətkarlığının, təsərrüfat məişətinin, maddi və mənəvi mədəniyyətin ayrı-ayrı elementləri də sonradan mahnıya çevrilmiş şer parçalarında öz qabarıq əksini tapmışdır. Məsələn, «Korğlunun Toqat səfəri» qolunda oxuyuruq:

Binadan gözəl olmayan,
Telin qədrini nə bilər.
Çöldə gəzən boz sərçələr,
Gülün qədrini nə bilər.

Kəl qoşub, kotan əkməyən,
Nanın süfrəyə tökməyən,
Arının qəhrin çəkməyən,
Balın qədrini nə bilər…

«Koroğlu» dastanının meydana gəlməsi, Koroğlu qəhrəmanlıqlarının mahnılara çevrilib aşıq və xanəndələrin ifasında el arasında geniş yayılması xalqın içindən çıxmış digər qəhərəmanlarla bağlı dastan və mahnı yaradıcılığına da güclü təkan verdi. Həmin proses XIX əsrdə daha geniş vüsət aldı ki, bu da müəyyən səbəblərlə bağlı idi. Belə ki, XIX əsrdə Azərbaycanın çar Rusiyası tərəfindən işğalı, Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsi, çarizmin müstəmləkəçilik siyasəti, sosial təbəqələşmənin doğurduğu ağır nəticələr və s. əhali tərəfindən narazılıqla, bəzi hallarda hətta açıq kütləvi etirazlarla qarşılanır və əksər hallarda açıq mübarizə formasına keçirdi. Həmin mübarizə formalarından ən geniş yayılanı isə kəndli hərəkatları idi ki, şimallı-cənublu bütün Azərbaycan ərazisini əhatə etmişdi.

Kəndli hərəkatının ən geniş yayılmış forması qaçaqçılıq idi. Azərbaycanda qaçaqçılıq zamanın gərdişindən, ədalətsiz işlərin nəticəsindən, ehtiyac, namus, qeyrət üzündən meydana gəlmişdi (5, s. 10). Hakimiyyətin zülm və ədalətsizliyinə dözməyərək, bu və ya digər səbəblərə görə kəndindən, obasından uzaq düşərək hökumətdən gizlənən, əsasən çöllərdə, meşələrdə, qərib kənd və şəhərlərə sığınan kimsələr xalq arasında məhz «qaçaq» adlanırdı. Bunlar əvvəlcə tək-tək gəzir, sonra isə hökumətdən narazı qalan kəndli balalarını da ətraflarına toplayaraq kiçik dəstələr halında mütələqiyyətə, zülmkar bəy və xanlara qarşı mübarizə aparırdılar. Rəsmi dairələrdə qaçaqları «quldur» kimi qələmə verirdilər. Xüsusilə, XIX əsrə aid bəzi rus ədəbiyyatın-

da Nağı, Nəbi, Tanrıverdi və başqaları kimi xalq qəhrəmanları quldur, yolkəsən, soyğunçu və s. kimi təqdim olunurdu. Məsələn, özünün «Qafqazda quldurlar» əsərinin böyük bir hissəsini Qaçaq Kərəmə həsr edən məşhur proletar yazıçısı Maksim Qorki yazırdı: «Əfsanəvi nağılların qəhrəmanı olan Kərəm quldurdur. Buna inanmaq olmazdı, əgər o, bu günə qədər yaşamasaydı. Çox kobud olmasına baxmayaraq, əfsanə və nağıl qəhrəmanı kimi məşhur olan bu adam əslində ədalətin timsalıdır» (2, 76).

Xalq arasında qaçaqlar «ədalət mücəssəməsi» rütbəsini qazanmışdılar. Onlar bir növ ədalətsiz işlərin hakimi idilər. Xalq həmişə onları sevmiş, haqqında yüzlərlə rəvayət, nəğmə, əfsanələ və gözəl dastanlar da yaratmışdılar. Həmin dastanları «qaçaq dastanları», onların qəhrəmanlarını isə «qaçaq», «xalq intiqamçıları», «həqiqət mübarizləri», «yoxsulların havadarı», «kəndli cəngavərləri», «ədalət mücəssiməsi» və s. cür adlandırırdılar. Xalq həmişə və hər yerdə qaçaqları divandan qoruyur, hökumətin cəza dəstələrindən gizlədirdilər. Bəlkə elə «qaçağı el saxlar» məsəli də məhz bu səbəbdən yaranmışdır (5, s. 54).

XIX əsr Azərbaycan qaçaq hərakatının ən görkəmli nümayəndələrindən biri də Qaçaq Nəbi olmuşdur. Çar hökuməti Nəbiyə qarşı uzun müddət mübarizə etmiş, onun üzərinə böyük süvari və piyada dəstələri göndərmişsə də, bir nəticə əldə edə bilməmişdi. Çünki xalq özü Nəbiyə yardım edirdi və onun gücü də bunda idi (6, s. 239).

Koroğlu kimi Qaçaq Nəbi də haqsızlığa, zülmə, ədalətsizliyə qarşı mübarizə aparmışdır. Onların taleyində, həyat və fəaliyyətində oxşarlıqlar da çoxdur. Belə ki, Koroğlunun Qıratı, Düratı olduğu kimi, Nəbinin Bozatı, Koroğlunun Misri qılıncı, qalxanı olduğu kimi, Nəbinin də aynalısı var idi. Koroğlunun Eyvaz, Dəli Həsən, Halaypozan, Dəmirçioğlu kimi dəliləri olmuşdusa, Qaçaq Nəbinin də Mehdisi, Şahhüseyni, Kərimi və başqa silahdaşları var idi. «Koroğlu»da Aşıq Cünun, «Qaçaq Nəbi» də isə Aşıq Əhməd fəaliyyət göstərir. Yeri gəlmişkən professor Ə.Axundov qeyd edir ki, Qaçaq Nəbi haqqında oxunan mahnıların çoxunu məhz onunla eyni dövrdə yaşamış Aşıq Əhməd qoşmuşdur (7, s. 38).

«Koroğlu»da olduğu kimi «Qaçaq Nəbi» də düşmənə hərbə-zorba demək, igidləri döyüşə səsləmək, yardımçı qüvvələri tərifləmək hallarına rast gəlinir. Burada da hadisələr üçüncü şəxs tərəfindən nəql olunur, qoşmalar isə dastan qəhrəmanlarının diliylə verilir. Nəbinin dilindən səsləndirilən və xalqa müraciət kimi oxunan aşağıdakı bəstədə bu cəhət açıq-aşkar görünür:

Dağılmaz qalayam, yarılmaz dağam,
Fəqirin, yoxsulun nə qədər sağam.
Yolunda xidmətkar, daşqın irmağam,
Alar qüvvət, gücü elindən Nəbi!
El-obanı salmaz dilindən Nəbi!

Lakin XIX əsrdə insanların dillər əzbəri olan bu tipli mahnıların çoxu məhz xalq tərəfindən qoşulurdu. Musiqişünas P.Vostrikov da bunu təsdiqləyir (8, s. 37) və qeyd edir ki, Qaçaq Nəbi kasıbların qeydinə qaldığından, onların hal-əhvalı ilə maraqlanıb yardım göstərdiyindən, insanlar da onu sevə-sevə vəsf edirdilər:

Qaçaq Nəbi Şahbulaqda durubdur,
Bənövşə bığların dalda durubdur,
Hardasan, hardasan ay telli Nəbi,
İrəngin lalədir, bil, telli Nəbi! (5, s. 71).

Qaçaq Nəbi hərəkatının coğrafiyası çox geniş olmuşdur. Gürcüstanın Tarix arxivində Naxçıvan komandınlığı tərəfindən 6 oktyabr 1885-ci il tarixində Qafqaz canişininə göndərilmiş xəritədə göstərilir ki, Nəbi Zəngəzur, Dərələyəz, Naxçıvan, İrəvan, Təbriz, Maku və Xoy vilayətlərində çox aktiv olmuşdur. Bunu 1895-ci ildə «Qafqaz» qəzetində çap olunmuş məqalə də təsdiqləyir (9).

Bu xalq qəhrəmanına həsr olunmuş məlum dastanın yaranmasına gəlincə isə, tədqiqatçılar qeyd edirlər ki, ilk öncə nəğmələr yaranmış, sonra isə həmin nəğmələr el sənətkarları, daha çox aşıqlar tərəfindən dönə-dönə işlənərək dastan şəklinə salınmışdır (5, s. 71).

Qəhrəmanlıq nəğmələrində diqqəti ən çox aparıcı qəhrəman cəlb etsə və bütün hadisələr onun ətrafında baş versə də, əslində o, xalqın mücəssəməsi kimi çıxış edirlər. Başqa

sözlə desək, dastan və ya mahnı qəhrəmanları həmişə xalqla bağlı olmuş, onunla birgə fəaliyyət göstərmiş, onun ən gözəl xüsusiyyətlərini özlərində cəmləşdirirdilər. Bu cəhət digər dastanlarda və qəhrəmanlıq mahnılarında olduğu kimi, Qaçaq Tanrıverdi haqqında oxunan mahnılarda da izlənilir. Məsələn;

Bəylər üstə mən atımı sürərəm,
Həqq yolunda öz işimi görərəm.
Yolunuzda canım qurban verərəm.
Qohum-qardaş, əlbir olun kəndlilər!

Burada Azərbaycan qəhrəmanlıq mahnıları üçün səciyyəvi olan bir cəhət - qəhrəmanın haqq, ədalət yolunda ölümə getməyə belə hazır olması, insanları birliyə, həmrəyliyə və düşmənə qarşı birgə mübarizəyə dəvət etməsi diqqəti daha çox cəlb edir.

Onu da qeyd edək ki, qəhrəmanlıq mahnılarının hamısında obrazın şücaətləri ilə bərabər, sevgi, təmiz məhəbbət və s. kimi ülvü hisslər də tərənnüm olunur ki, bu da həmin mahnıları yeknəsəqlikdən xilas edir. Bu baxımdan «Qara Məlik» haqqında qoşulmuş mahnılar da istisnalıq təşkil etmir:

Qara Məlik, Qara Məlik,
Həsrət qaldın yara məlik.
Yarın yadlara yar olur,
Qıl başına çarə, Məlik.

Quzuya gəl, qoyuna gəl,
Qurban yarın boyuna, gəl,
Rüxsarənin toyuna gəl,
Qara Məlik, Qara Məlik!
Həsrət qaldın yara, Məlik!

Anoloji motivlərə Şah İsmayıl, Dərbəndli Fətəli xan, Tuti Bikə və başqalarına həsr olunmuş mahnılarda da rast gəlinir:

Dəmbadəm yol gözlərəm.
Sevgili yarım gəlmədi,
Qalmışam qış möhnətində,
Novbaharım gəlmədi.

Və yaxud;

Dərbənd üstə barıdı,
Əlçatmaz, yuxarıdı,
Düşmən gəlsə basılmaz,
Tək deyil arxalıdı.

Cənubi Azərbaycanda baş verən siyasi hadisələr, xalqın zülmə və ədalətsizliyə qarşı apardığı mübarizənin önündə duranlar da zaman-zaman xalq mahnılarının baş qəhrəmanlarına çevrilmiş və xalqın dilindən düşməmişdir. Bu baxımdan Zeynəbə həsr olunmuş xalq mahnıları çox səciyyəvidir. Belə ki, XIX əsrin axırlarında Təbrizdə möhtəkirlər taxılı anbarlara doldurub, əhali arasında aclıq salır və nəticədə xalq içərisində üsyan baş verir. 1895-96-cı illərdə baş vermiş bu üsyana Təbrizin qəhrəman qızı Zeynəb başçılıq edir. O, yoxsul qadınları ətrafına toplayaraq bazarları bağladır, möhtəkirlərin taxıl anbarlarını dağıtdırır, un və buğdanı yoxsullar arasında paylatdırır. Xalq ona «Zeynəb paşa» və «Dəhbaşı Zeynəb» adını verir. Xalq arasında çox geniş yayılmış mahnıların birində Zeynəb belə tərənnüm olunur:

Hökm eylədi Zeynəb paşa,
Cümlə ünası fərraşa,
Siz bazarı basın daşa,
Patavamı bağlayım gəlim,
Dəyənəyi yağlayım gəlim (10, s. 187).

Xalq öz qəhərmanlarına onun xarakterik xüsusiyyətlərinə uyğun olan təxəllüs verirdi. Məsələn, Dəli Alı, Qaçaq Kərəm, Məlkəlmət İsmayıl, Qandal Nağı, Telli Qara, Qara Tanrıverdi və s. Bəzən də təxəllüslər qəhrəmanın anadan olduğu yerlə, el-oba ilə əlaqədar olurdu. Məsələn, İncəli İsmayıl, Eldarlı Qəhrəman, Qaziyanılı Əbdülkərim, Bozalqandı Tanrıverdi, Gəncəli İsmayıl və s. (10, s. 187-188).

Tarixi mahnıların bir qolunu da, belə demək mümkünsə «inqilabi mahnılar» təşkil edir. Belə mahnıların yaranması nisbətən sonrakı dövrlərə, əsasən də inqilabi hərəkatların baş verdiyi XX əsrin əvvəllərinə təsadüf edir. Azərbaycanın cənubunda və şimalında baş verən inqilabi hərəkatlar, ayrı-ayrı şəxsiyyətlərin həmin inqilablarda göstərdiyi şücaətlər və s. tədricən bir çox xalq mahnılarının mövzusu kimi çıxış etməyə başlamışdı. Bu baxımdan «Səttar xan», «Nəriman» və «Qatır Məmməd»in şəninə qoşulmuş mahnıları, həmçinin «Təbrizdə var inqilab», «Ay Nikolay ağlama» və s. qeyd etmək olar (3, s.

30). Oktyabr çevrilişinin nəticələri, Lenin, Stalin, 1 May, Qızıl ordu, kolxoz, bolşeviklər haqqında mahnılar, «Bakının tərifi», «Tiflisin tərifi», firqə qurultayları və el şənliklərində aşıqlar tərəfindən oxunan bu kimi digər mahnıları da bu sıraya ad etmək olar. Lakin xalq qəhrəmanlarına həsr olunmuş mahnılardan fərqli olaraq, inqilabi mahnıların əksəriyyəti ictimai-siyasi quruluşun xarakterindən asılılığı və çox vaxt sifarişlə yazılıb-oxunduğundan, uzunömürlü olmamış və böyük əksəriyyəti müəyyən zaman kəsiyində unudularaq aşıq və xanəndələrin repertuarından çıxmışdır.

Tarixi və ya qəhrəmanlıq mahnılarının keçmişdə olduğu kimi, müasir dövrümüzdə böyük mənəvi və tərbiyəvi əhəmiyyəti vardır. Azərbaycanın müharibə şəraitində olduğunu nəzərə alıb, geniş xalq kütlələrini, xüsusilə də gəncləri qəhrəmanlığa və vətənpərvərliyə ruhlandırmaqda ən mühüm vasitələrdən biri kimi həmin mahnıların qorunub saxlanması və geniş təbliği olduqca vacibdir.

## ƏDƏBİYYAT

1. Arif.M. Seçilmiş əsərləri, III c. B.Elm, 1972
2. Рустамзаде Р. // Героические песни Азербайджанского народа // Литературный Азербайджан. Январь-февраль, 1965
3. Исмаилзаде Р. Азербайджанские народные песни //Автореферат диссертации на соискание ученной степени кандитата искусствоведение. Баку, 1971
4. Koroğlu (dastan). Bakı, 1982
5. Rüstəmzadə R. El qəhrəmanları xalq ədəbiyyatında. Bakı Gənclik, 1984
6. Cəfərov C. Azərbaycan dram teatrı. B. 1951
7. Axundov Ə. XIX əsrin görkəmli aşıqları haqqında // Azərbaycan şifahi xalq yaradıcılığına dair tədqiqlər. B. 1961.
8. Востриков П. Музыка и песни у азербайджанских татар //Сборник Материалов для Описание Местностей и Племен Кавказа (СМОМПК), Тифлис, 1912, № 42
9. Газета «Кавказ». № 181, 1895
10. Qəhrəmanlıq nəğmələrinin poetik xüsusiyyətləri //Azərbaycan (jurnal), № 3, 1965

***Мехпара Имамверди кызы Алиева***

## ОБ ЭТНОГРАФИЧЕСКИХ ОСОБЕННОСТЯХ ИСТОРИЧЕСКИХ ПЕСЕН

### *РЕЗЮМЕ*

Данная статья посвящена этнографическим особенностям одного из основных жанров музыкального фольклора – исторических песен.

В статье речь идет об истоках, первичных условиях формирования и содержании исторических песен, об их роли в патриотическом воспитании молодежи.

Помимо этого в статье выражается отношение к существующим в научной литературе разногласиям по вопросам типологии жанров песен (исторических, героических и.т. д).

Особое вынимание уделяется также содержанию, особенности и современному состоянию т.к «революционных» песен которые составляют особую ветвь исторических

***Mekhpara Imamverdi qizi Aliyeva***

## ABUT THE ETHNOGRAPHIC CHARACTERISTICS OF HISTORICAL SONGS

### *SUMMARY*

The article deals with the etnic qualities of historic songs at gives the information about the main sources of historic songs, their origin and various forms. The article shows how these songs encourage the youth with their patriotic themes.

At also shows the attitude to the “historic” and “heroic” songs. You can see the modern position to the revolutionary songs and their content.